

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

# LERİK

№ 04-06 (6067-6068) ✹ 30 mart 2023-cü il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik

## LAÇINA QAYIDACAĞIQ

**Prezident İlham Əliyevin cari ilin 28 mart tarixində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsinin (Məsim Məmmədovu) qəbul olunması ilə əlaqədar mühüm məqamları diqqətə çatdırmışdır.**




Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdur.

İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar. Xaricdə yaşamış ermənilər həm Laçın şəhərinə, həm bir neçə kəndə gətirilmiş və orada yerləşdirilmişlər. Bu, bütün beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır.

Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var. Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək.

Azərbaycan Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardı. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir.

Bundan sonra Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılması bizim üçün əsas vəzifələrdən biridir.

Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir. O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik.

Kəlbəcər-Laçın yolunun yenidən qurulması prosesinə start verildi. Azərbaycan yolu yenidən qurur və bir çox tunellər inşa edilir. Ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarında bizim ən çox tunellərimiz məhz o bölgədədir və Murov dağının altından keçən tunelin uzunluğu təxminən 12 kilometr olacaq. Beləliklə, Göygöl rayonundan da Şərqi Zəngəzura yol açırıq. Eyni zamanda, Qubadlı-Laçın yolu da sürətlə inşa edilir.

Minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar. Müharibə başa çatan kimi Laçın rayonunun yenidən qurulması ilə bağlı işlərə start verilmişdir.

## 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

**Ulu Öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünül-müş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".**




- 1918-ci ilin mart-aprel aylarında dinc Azərbaycan əhalisi kütləvi surətdə qətlə yetirilmişdir. Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, insanlar işgəncələrə məruz qalmış, onlara qəsdən fiziki qüsurlar yetirilmişdir. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətlər, talanlar və etnik təmizləmələr həyata keçiriblər;

- Soyqırımın miqyası. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar;

- Qanlı faciə. Erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirmiş, on minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirərək diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtmışlar;

- "Daşnaksutyun" xisləti. Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksutyun" partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişlər;

- Prezident İlham Əliyev Soyqırımı memorial kompleksinin açılışı zamanı demişdir: "1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir... Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir."

Erməni-bolşevik silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Prezident İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalamışdır.

Sərəncamla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsinin təmin edilməsi tapşırılmış, həmçinin Milli Məclisə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilmişdir.

## AĞACƏKMƏ KAMPANİYASI KEÇİRİLİB



**Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar ağacəkmə kampaniyası keçirilib.**

Ağacəkmə kampaniyası çərçivəsində Lerik şəhərinin park və xiyabanlarında, rayonun idarə, müəssisə, təşkilatların həyətlərində və kənd ərazi icra nümayəndəliklərində 1800-dən yuxarı şam, sərv, akasiya, qovaq, çinar və s. cinslərdən olan müxtəlif növ ağac və gül kolları əkilib.

İməcilikdə rayon icra hakimiyyəti başçısı Əkbər Abbasov, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilat kollektivləri, ağsaqqallar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, ağacəkmə kampaniyası davam etdirilir.

## BU BAYRAM QADINLARA YARAŞIR

**Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə rayonun ictimai-siyasi həyatında fəal olan qadınlarla və şəhid anaları ilə rayon icra hakimiyyəti başçısının görüşü keçirilib.**



Görüşdə rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov başda şəhid anaları olmaqla xanımları 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək onlara ən xoş arzularını ifadə edib. Bildirib ki, Azərbaycan qadını respublikamızın ictimai-siyasi həyatında böyük rol oynayır. Qadınlarımız öz istedadı, zəkası, ağlı və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və yaşadılmasında müstəsna xidmətlər göstərirlər.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gender siyasəti nəticəsində qadınlara ictimai həyatın bütün sferalarında bərabər imkanlar yaradılıb və onlar ölkənin ictimai-siyasi, elmi-mədəni həyatında yaxından iştirak edirlər.

Görüşdə rayon icra hakimiyyətinin başçısı müasir qadının real obrazını yaradan birinci vitse-prezident Mehriban xanım Əliyevanın respublikamızın inkişafındakı və əhalinin sosial problemlərinin həllindəki xidmətlərindən söhbət açıb.

Sonra rayonumuzda da müxtəlif təşkilatlarda, dövlət orqanlarında, yerli özünüidarəetmə orqanlarında qadınların uğurla fəaliyyət göstərdiyini, onlardan bir neçəsinin cənab Prezident tərəfindən fəxri adlara, dövlət təltiflərinə layiq görüldüyünü qeyd edib.

Təbrik nitqi söyləyən digər iştirakçılar da ölkənin, o cümlədən rayonun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında qadınların rollarının yüksək qiymətləndirilməsinə, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən qadınların bir qrupuna rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı və qiymətli hədiyyələr təqdim edilib.

## ŞƏHİD ANALARI VƏ XANIMLARLA GÖRÜŞ



**Lerik rayonu, "Relax" istirahət mərkəzində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid analarının, xanımların şərəfinə tədbir keçirilib.**

Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və lerikli iş adamı Zaur Nəzərovun dəstəyi ilə keçirilən tədbirə şəhid anaları, bacıları, xanımları dəvət olunub.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, respublikamızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi sükutla yad edilib.



Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov başda şəhid anaları, şəhidlərin həyat yoldaşları olmaqla bütün Azərbaycan xanımlarını 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, onlara ən xoş arzularını ifadə edib. Tarixin bütün dövrlərində Azərbaycan qadınının ağlı, təmkini, vəfası və yüksək analıq keyfiyyətləri ilə seçildiyini, zərifliyin, nəcibliyin, gözəlliyin rəmzi olduğunu qeyd edib. Birinci və İkinci Qarabağ müharibəsində canından keçən Vətən oğullarına Allahdan rəhmət diləyib, belə qəhrəmanları böyüdən bütün anaların qarşısında baş əydiyini, ölkə başçısı tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğının rayonumuzda da davam etdirildiyini bildirib.

Sonra şəhid analarına və digər qonaqlara söz verilib. Musiqi və rəqs nömrələri ilə davam edən tədbir şəhid ailəsindən olan xanımlara qazilərin hədiyyələr təqdim etməsi ilə başa çatıb.

## VƏTƏNDAŞLAR QƏBUL EDİLDİ

**28 mart 2023-cü il tarixində Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilib.**

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 41 vətəndaş, o cümlədən şəhid ailələri, qazilər və müharibə iştirakçıları növbədənkənar qəbul edilib.

Qəbulda rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov vətəndaşlar tərəfindən səsləndirilən müraciətlərin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.



## ZENONU KƏNDİNDƏ VƏTƏNDAŞLAR DEDİLƏR...

**Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov Şingədulan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin Zenoni, Şingədulan, Ağqışlaq, Durğan, Küman və Laman kəndlərinin sakinləri ilə səyyar-görüş keçirib.**



Zenoni kənd ümumi orta məktəbində keçirilən səyyar qəbulda rayon icra hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların rəhbər işçiləri iştirak edib.

Rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov respublikada əhalinin rifah halının yüksəldilməsi istiqamətində həyata keçirilən sosial-iqtisadi islahatlar, aparılan abadlıq-quruculuq işləri, sakinlərin rahatlığının təmin olunması, sahibkarlığın inkişafı, vətəndaş məmnunluğunun artırılması istiqamətində görülən işlər barədə məlumat verərək, sakinləri fərdi qaydada dinləyib. Sakinlər tərəfindən qaldırılan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün aidiyyəti təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verib.

Həmçinin rayon rəhbəri Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən yaradılmış Rəqəmsal İcra Hakimiyyəti portalı barədə vətəndaşlara məlumat verərək, xidmətin əlçatanlıq və üstünlüklərini qeyd edib və və https://rih.gov.az/ portalından istifadə etmələrini tövsiyə edib.

# LERİKDƏ NOVRUZ BAYRAMI



**Lerik şəhərindəki Heydər Əliyev meydanında Novruz bayramı münasibəti ilə ümumrayon tədbiri və konsert proqramı keçirilib.**



Bayramsayağı bəzədilmiş Heydər Əliyev meydanında keçirilmiş tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri, respublikamızın digər bölgələrindən gələn qonaqlar və yüzlərlə lerikli iştirak edib.



Öncə rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov və tədbir iştirakçıları Heydər Əliyev meydanında novruzun gəlişini tərənnüm edən əlvan bəzədilmiş güşələrdə Novruz atributları, ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətləri, əl işləri və xalq sənətkarlığı nümunələri tanış olublar.



Milli idman növlərinin nümayişi, milli mətbəximizə aid olan təamlar və şirniyyatlar, kosa və keçəlin məzhəkələri rayon sakinləri tərəfindən xüsusi rəğbətlə qarşılanıb.

Bayram tonqalı şəhid atası Rəbbil Heyderov və ağsaqqal Hidayət Beşirov tərəfindən alovlandırılıb.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov milli birlik və həmrəylik rəmzi olan müqəddəs Novruz bayramı münasibəti ilə rayon sakinlərini və çoxsaylı qonaqları təbrik edib, hər bir ailəyə bol ruzi, xoşbəxtlik və səadət arzulayıb.

Tədbir respublikanın tanınmış incəsənət ustaları Mələkxanım Əyyubova, Mirələm Mirələmov, İlkin Əhmədov, Aysel Əlizadə, Valid Abdullayev, Aynur Dadaşova və Fatimə Fətəliyevanın rəngarəng müsiqi nömrələri ilə davam etdirilib.

# NOVRUZ DİRİLİK, YAŞAM, BƏRƏKƏT, RUZİ BAYRAMIDIR

**Novruz dirilik, yaşam, bərəkət, ruzi bayramıdır. Novruz bayramı şimal yarım kürəsində yazın gəlişi ilə eyni gündə qeyd olunur. 21 mart tarixində gecə ilə gündüzün bərabərləşdiyi bu gündə qədim zamanlardan bir sıra xalqlar elə həmçinin azərilər də yazın gəlişini, təbiətin oyanışını yeni ilin başlanğıcı kimi qeyd etmiş şənliklər keçirmişlər. Bu şənliklər təkcə Azərbaycanda yox həmçinin Asiyada və bir sıra Şərq ölkələrində qeyd olunur. Hətta bəzi dövlətlərdə təkcə bununla kifayətlənmirlər həmin gün onlarda təqvimin ilk günü hesab olunur və yeni il 21 mart tarixində başlayır.**




Novruz bayramı 2009 – cu ildə YUNESKO tərəfindən qeyri -maddi mədəni irs siyahısına daxil edilmiş, 2010 – cu ildə isə BMT Baş Asambleyasının 64-cü sessiyasının iclasında 21 mart tarixi " Beynəlxalq Novruz Günü" elan edilmişdir. Hal hazırda da bu bayram eyni qayda ilə qeyd olunur.Novruz adətləri bunlardır:Novruza qədər bayrama hazırlıq görərlər, həyət – bacanı təmizləyərlər, paltar – palazı təmiz suya çəkərlər, ağacların dibini bellərlər, bağların xəzəlini yığıb yandırırlar,ağacların quru budaqlarını kəsib atarlar, səməni göyərdərlər. Novruzqabağı qovurğanı qovurarlar, xonça tutarlar, balıq bişirərlər, Novruz şənlikləri düzəldərlər. Novruzda səməni halvası bişirərlər, niyyət eləyərlər, Novruz süfrəsi açarlar,"s" hərfi ilə başlanan nemət və ya əşya qoyarlar (sikkə, sumaq, sarımsaq, su, səməni və s..), bir tonqal yandırarlar(axır çərşənbədə 7 tonqal), üzərrik yandırıb tüstüsünü mal – qaraya, oğul – uşağa, ev – eşiyə verərlər, təzə paltar geyərlər. Novruzda qız – gəlini təzə donla sevindirərlər şənlik edərlər, Novruz xonçası bəzəyərlər, şəkərbura, qoğal, paxlava, badambura və sairə şirniyyatlar bişirərlər! Novruzda yumurta boyayarlar, qəmgin oturmazlar, noğul, şəkər düzəldib süfrəyə qoyarlar,səməni göyərtmək düşməyən evə səməni apararlar,şəhid ailələrinə,qazilərə,bivarislərə, kimsəsizlərə baş çəkərlər.Novruzda at çaparlar, qız bəyənməyə çıxarlar, qıza mətləb açarlar, küsülü qalmazlar.

Novruzda nişanlı qıza Novruz payı apararlar, söyüş söyməzlər. Novruz axşamı qarğış etməzlər, axşamını ata evində keçirərlər, vəfat etmiş ata – ananın qəbrini ziyarət edirlər, evdə ailə üzvlərinin sayına görə şam yandırarlar. Novruzda qohum – qardaşa, tanış – bilişə mehribanlıq eləyərlər, qohumlara baş çəkərlər!Novruz günü alver eləməzlər, başqası barədə pis söz danışmazlar, qeybət və həsəd etməzlər! Novruzda şirni paylayarlar, atı, iti vurmazlar. Novruz günü işləməzlər, dua yazdırmazlar, evə nərgiz gətirməzlər, təzə yarpız yığarlar,ilanı vurmazlar,novruzgülü dərərlər, qızlar qırmızı geyinərlər,evin sahibi evdə olmalıdır, insanlar dalaşmazlar. Novruz axşamı bacadan sallanan torbaya və şala pay qoyarlar,uşaqlar ancaq papaq ata bilər və qapıya atılan papağı boş qaytarmazlar, ona Novruz xonçasından pay qoyarlar. Novruz günü xəstə yatanlara pay göndərərlər, elin ağsaqqallarına Novruz şirniyyatı göndərərlər. Folklorşünas alim,əziz müəllimim, professor Məhərrəm Qasımlı da Bahar qızı, atəşdən od götürüb tonqal qalamaq kimi adətlərin qondarma olduğunu bildirdi: "Novruzla bağlı olduqca çox adətlər var ki, onlar hazırda unudulub. Novruza aid elementlərin, ünsürlərin bu gün bizə ən yaxşı halda üçdə biri gəlib çatıb. Bu dünya folklorunda da var ki, baharın gəlişi münasibəti ilə insanlar kosa ilə keçəli məsxərəyə qoyub ələ salırlar. Onlar sırf məsğərə obrazlarıdır. Kosa da Keçəl də qışın rəmzidir. Fikir versəniz, görərsiniz ki, onların əyni-başı tör-töküntüdür, pay dilənirlər və sairə buna əyani sübutdur! Burada əslində tarixi mərasim təhrif olunub. Tarixi mərasimdə kosa, keçəl, bir də keçi olmalıdır. Keçmiş rəsm əsərlərinə baxsanız, görə bilərsiniz. Keçi yeni ilin, yazın rəmzi hesab edilir. Hazırda Keçini ortaya çıxarmaq çətinləşib deyə çıxarmırlar. Tarixi mərasimdə Kosa ilə Keçəl savaşır, meydana gələn keçi isə Kosanın qarnını vurur dağıdır, Keçəli isə qovub uzaqlaşdırır. Yəni köhnə ili, qışı qovub uzaqlaşdırır və özünün gəlişi ilə yazı, baharı gətirir. Novruzun tarixini konkret bir ilə və ya dinə bağlamaq olmaz,çünki od üstündən tullanmaq zərdüştilik dinində məqbul əməl deyil. Bütün dinlər bu bayrama hörmətlə yanaşmışdır! Son kamil din olan islamda da bu bayram müqəddəs sayılır.Belə ki,ayrı-ayrı dövrlərdə həm Məhəmməd peyğəmbər (ə), həm də həzrət Əliyə(ə) Novruz sovqatı aparılır, bu bayramda küsülülərin barışdığını, qohum-əqrəbaya baş çəkildiyini, kasıblara pay aparıldığını və sair gözəl bayram adətlərindən danışılır.Hər iki müqəddəs şəxsiyyət ayrı-ayrı vaxtlarda eyni cümləni buyurub: "Hər günümüz Novruz olsun!". Düzdür, Şərq xalqları üçün müqəddəs bir bayramdır, hətta Şərqin böyük alimi Ömər Xəyyam bu bayram haqqında ayrıca bir əsər-"Novruznamə" yazıb.

Fikrimizcə, Novruz bayramı insanlıq bayramıdır! Onun tarixi də insanlığın tarixindən başlanır! Miladi ilə 2023-cü ilin Novruzu , "Avesta" təqvimi ilə 2528-ci iliniz (Avestaşünas Veste görə) uğurlu və düşərli olsun!



QƏDİR KƏRİMOV,
Tədqiqatçı-filoloq,
AJB-nin üzvü

# QANLI MART QIRĞINI



Xalqımızın başı çox bəlalar çəkib. Torpaqlarımız zaman-zaman bölünüb. Tariximiz təhrif olunub. Belə ki, son iki yüz ilə nəzər saldıqda Azərbaycan tarixində faciələrlə, soyqırımlarla dolu səhifələr görürük. Belə ki, 1918-ci ilin mart-aprel aylarında ermənilər günahsız insanları amansızlıqla öldürmüş böyük faciələr törətmişlər. Ən dəhşətlisi budur ki, 70 il qadağalarla, saxta beynəlmiləlçilik təbliğatı ilə faciəmizi bizə unutdurmuşlar. Sovet hakimiyyəti illərində ermənilərin xalqımıza qarşı törətdikləri qanlı faciələri, xalqın qan yaddaşından silməyə nə qədər cəhd göstərilsə də, ancaq bu mümkün olmadı. Gec də olsa, həqiqət üzə çıxdı. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanından sonra aparılan tədqiqatlar, axtarışlar, həqiqətin üzə çıxarılmasında və başımıza gələnlərin dünya ictimaiyyətinə çatdırılmasında əsas rol oynadı. Sənəd və faktlara əsaslanaraq deyə bilərik ki, 1918-ci ilin mart soyqırımı öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biri olmuşdur. Erməni cəlladları əllərinə düşən fürsətdən istifadə edərək uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirmişlər. Azərbaycanlılarla yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış millətinə mənsub insanları da süngüdən keçirmişlər. Olmazın müsibətlər törətmişlər. Bakının gözəl yerlərini, memarlıq abidələrini xarabalığa çevirmişlər. Qırğınlar təkcə Bakıda deyil, Şamaxıda, Qubanın qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdi. 1918-ci ilin mart-aprel aylarında Şamaxıda öldürülənlərin sayı 7-8 min göstərilsə də əslində 10-12 min nəfərə olduğu bəllidir.

Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Milli Məclisin 29 mart 1994-cü il tarixli iclasında 20 yanvar faciəsi müzakirə edildi və ona siyasi-hüquqi qiymət verildi. Deportasiya və soyqırımı haqqında fərmanlar verildi. Şəhidlərimizin adları əbədiləşdirildi, abidələri ucaldıldı və ailələrinə dövlət qayğısı göstərildi. Bu siyasət bu gün də Cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Hər il yüz minlərlə insan 31 mart soyqırımı qurbanlarının, vətənin azadlığıl və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əzizi xatirəsini ehtiramla yad etmək üçün Şəhidlər Xiyabanını ziyarət edir. Şəhidlərimizə rəhmət diləyir, torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün bərpa olunması xəbərini növbəti ziyarətədək vermək ümidində oldurdular.

Şükürlər olsun ki, bu arzu Ali Baş Komandan Cənab İlham Əliyevin, qəhrəman ordumuzun və xalqımızın birliyi sayəsində reallaşdı: Torpaqlarımız işğalından azad edildi. Təqvimimizə Zəfər günü düşdü. Biz şəhidlərimizi həmişə anacağıq. Amma inanıram ki, bundan sonra hər il qələbəmiz qeyd edildə şəhidlərimizin ruhu da bizimlə bərabər sevinəcəkdir.

**Hüseynbala Əliyev**

# YARMARKA TƏŞKİL EDİLİB



**Lerik Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə təşkil edilən yarmarka Novruz bayramı ərəfəsində əhalinin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təmin olunması və süni qiymət artımının qarşısının alınması məqsədi daşıyır.**



Lerik şəhəri, Heydər Əliyev meydanı ərazisində təşkil edilən yarmarkada əsasən ət və süd məhsulları, balıq, quş əti, yumurta, meyvə-tərəvəz, bayram çərəzləri satışa çıxarılmışdır. Məhsullar alıcılara bazardakından 20-30 faiz ucuz qiymətə teklif olunub.

Yarmarkalarda alıcıların və satıcıların rahatlığı üçün hər cür şərait yaradılmış, məhsulların keyfiyyətinə, sanitariya-gigiyenik vəziyyətə nəzarət təmin edilmişdir.

Sakinlər yarmarkaların keçirilməsini rəğbətlə qarşılayır, məhsulların keyfiyyətindən və qiymətindən razılıq edirlər. Yaradılan şərait və satış qiymətləri ilə bağlı razılıq bildirən sakinlər belə yarmarkaların təşkil edilməsinin əhəmiyyətini qeyd edərək bayramqabağı əhaliyə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildirdilər.



## QƏNİ CAMALZADƏNİN SEÇİLMİŞ ƏSƏRLƏRİNİN ÜÇ CİLDİ ÇAPDAN ÇIXMIŞDIR

Qəni Camalzadə 80-ci illərdə ədəbiyyata gəlmişdir. Bədii yaradıcılığa hekayələrlə başlayan yazıçı sonralar roman janrına üstünlük vermişdir.

Qəni Camalzadənin əsərləri Azərbaycanın dövrü mətbuatında çapdan çıxmışdır. 2015-ci ildə "Karxana" romanı kitab halında oxuculara təqdim olunmuşdur. Yazıçının "Qızıl xotuğ", "Kiaksarın sonuncu savaşı", "Şeytana daş atanlar" romanları rus və ingilis dillərində çapdan çıxmışdır. Onun romanları Nyu-York şəhərində nəşr edilərək "Amazon" şirkəti tərəfindən yayımlanmışdır.

Tanınmış yazıçı Azərbaycan ədəbiyyatının xaricdə təbliğinə öz dəyərli töhfəsini vermişdir. Hazırda Qəni müəllim 2 roman üzərində işləyir.

Yazıçının seçilmiş əsərləri 15 cilddən ibarət nəşr olunacaqdır. Artıq "Qanun" nəşriyyatı yazıçının seçilmiş əsərlərinin 3 cildini çap etmişdir.

Şübhəsiz ki, yazçının əsərlərini təbəssümlə mütaliə olunacaq, qədirbilən oxucuların dərin hörmətini qazanacaqdır.



# QƏRİBƏ GÖRÜŞ

**Allahverdi Əbdül oğlu Məmmədli ilə tanışlığım 90-cı illərdən başlayır. Tofiq Nurəlinin redaktor olduğu "Şəfqət" qəzetində işləyirdi. Redaksiya gərgin işlədiyini görürdüm. Şeirlərinə çox da bələd olmamışdım. Ancaq eşitmişdim ki, Lerikin Anburdərə kəndindəndir, ailəsi köçürmə zamanı Biləsuvar rayonunda yaşamalı olub. Həm də "Ulduz" jurnalında məsul katib işləmişdi.**

Günlərin birində, daha dəqiq desək, mart ayında Elmlər Akademiyasının rəyasət heyətinin yerləşdiyi binanın yanından üzüyuxarı qalxarkən Allahverdi Məmmədli ilə rastlaşdım. Salamlaşıb əhval tutduq. O, siqaretin tüstüsünü ciyərlərinə çəkə-çəkə məni dinləyirdi. Lerikli şəhidlərdən söz açan kitabın makinadan çıxmış nüsxələrindən ibarət materiallarını Allahverdi müəllimə göstərdim. Bir nəfər imkanlı şəxs kitabın çapına razılıq versə də son anda imtina etmişdi. Mən buna görə əsəb keçirmişdim. İndi də deyinə-deyinə danışırdım.

- Bəs nə etmək istəyirsən? - Allahverdi soruşdu.

- Bir nəfərə gümanım qalıb. Bəlkə Miri Qənbərov bu işi öz üzərinə götürdü.

- Çox hirslənmə, onunla görüşək, eşitdiyimə görə çox alicənab və xeyirxahdır. Özü də vəzifə sahibidir

- Nə deyirəm, ona müraciət etməmişəm. Bəlkə birlikdə gedək onunla görüşək, - dedim.

Allahverdi müəllim razılaşdı. Miri Qənbərov o vaxtlar Respublika Ticarət Naziri işləyirdi. Hökumət Evində yerləşən nazirliyin rəhbəri bizi nəzakətlə qarşıladı, elə ilk söhbətdə təklifimizi bəyəndi, kitabın çapına pul ayırmağı öz öhdəsinə götürdü

Bəli, biz buna çox sevindik. Deməli, Birinci Qarabağ müharibəsində qəhrəmanlıqla vuruşub şəhid olan lerikli igidlərdən bəhs edən kitab işıq üzü görəcək!

Beləliklə, kitabı çap olunmaq üçün Qəşəm İsabəylinin baş redaktor olduğu nəşriyyata verdik.

- Kitabın adı nə qoyaq? - deyə Allahverdi Məmmədli soruşdu.

Mən dedim:

- Mehman Qafarov tank taborunun komandiri kimi, Qarabağın odlu nöqtələrində çox olmuş, şiddətli döyüşlərdə mərdlik və şücaət göstərmişdir. 23 yaşlı şəhid döyüş qabağı anasına belə demişdir: "Ana, desələr ki yaralanmışam - inanma! Desələr ki, ölmüşəm - yenə inanma!". Məncə kitabın adı belə olsa yaxşıdır: "Ölsəm, inanma".

Allahverdi müəllim bir söz demədi, razılaşdı. Kitabın üz qabığının rəsmini çəkməyi "Ulduz"un rəssamı Ədalət çəkdi.

Kitab çapa gedən ərəfədə Allahverdidən soruşdum:

- Yəqin kitaba ön söz və epiloq da yazacaqsınız?

- Ön sözü Miri Qənbərova həsr edəcəyəm. Bir "son söz əvəzi" də yazmışam, sonra oxuyarsan deyə, Allahverdi mənalı-mənalı qımışdı

Aprel ayı idi. Mənə zəng gəldi ki, kitab çapdan çıxıb, gəl, apar. Şəhidlərə həsr olunmuş kitabım kütləvi tirajla - 2000 nüsxə nəşr olunmuşdu.

Şəkillər dozakl qıtlığından həm kiçik, həm də solğun düşmüşdü Nazik cildinə isə söz ola bilməzdi. 88 şəhid və 22 itkin düşmüş əsgər barədə məlumatlar oxucunun diqqətinə çatdırılmışdı. Yazıların çoxu esse üslubunda idi. Bəzi yazılar qısa alınmışdı: çünki məlumatlar bizə dolğun verilməmişdi. Ya da vermək istəməmişdilər

Hə, Allahverdinin mənalı-mənalı qımışmağının mahiyyəti aydınlaşdı: çox təsirli bir "son səs əvəzi" idi. O, mənə demişdi ki, kitabın sonunda nəsə yazmışam, çapdan sonra oxuyarsan. Onun yazdığı mənim üçün ən qiymətli mətn idi   Həqiqəti yazmışdı: "Qarşıdan çıxan tank düz İsmayılın (şəhid İsmayıl Yaqubov) üstünə gəldi. Yaxınlığında mərmi partladı; ağır yaralansa da yıxılmadı, özünü saxladı, dizi üstə oturub pulemyotdan atəş açmağa başlada düşmənə. Elə sizi üstə döyüşə-döyüşə də həlak oldu. Sanki torpağa səcdə qılıb deyirdi: bağışla, ana torpaq, səni yağılardan təmizləmək üçün ömrüm çatmadı   ".

Bəli, belə bir şahanə ölüm lerikli şəhidlər üçün xarakterik idi. Biz sadəcə qələm-kağızla Vətənə can fəda edən oğullara nəfəs vermək, onları gələcək qəhrəmanlarımıza tanıtmaq istədik. Vətən müharibəsinin cəsur qəhrəman əsərləridir neçə-neçə İsmayılın ədalət yolunun davamçılarıdır. Vətənin başını ucaldanlar, dünyada üzümüzü ağardanlardır   Şərəf və qürurumuzu dirçəldənlərdir

Mən "Azərbaycan" nəşriyyatında Orxan Rzazadənin ikinci mərtəbədəki kompüter otağında rəflərdəki kitablara baxırdım. Allahverdi Məmmədlinin 1987-ci ildə "Yazıçı" nəşriyyatında nəşr olunmuş "Haçandır görüşmürük" adlı şeirlər və poemalardan ibarət kitabını görüb onu acgözlüklə oxudum. Sanki Allahverdi müəllimlə yenidən görüşdüm və bu yazını yazdım. Eyni formatda şair dostum Oqtay Rzanın nəşr edilmiş "Günəşin adından" (1991) kitabı da rastıma çıxdı. Burada iki dəfə Lenin ordeninə layiq görülmüş çoban Sərxan Hüseynova həsr etdiyi "Uğurlu keç   " adlı şeiri də yer almışdı. Hər iki kitabın varaqları saralsa da çox əhəmiyyətli idi.

"Haçandır görüşmürük" kitabına nəğməkar şair İlyas Tapdıq ön söz yazıb: Qısa olsa da çox dəyərli yazıb. "Ədəbiyyatdakı müasir imza çoxluğunda Allahverdi Məmmədli imzası seçilir. Onun şeirinin ilk bələdçisi səmimiyyətdir. Bu səmimiyyət adamın əlindən sakitcə yapışır, çığır-bağır salmadan, göyərə-göyərə sinəsini kürsüyə vermədən səni sadə, özünəməxsus deyim tərzi olan duyğulara gətirib çıxarır.

Allahverdinin şeirlərində daxili narahatlıq, dünyanın taleyi ilə öz poetik taleyini əkizləşdirən bir şair ürəyi görürəm.

**Gedək, şəklimizi çəkdirək, dünya,**
**Şəkildi, qoy dursun, nə ziyanı var.**
**Gedək şəklimizi çəkdirək, dünya,**
**Dünyanın işini nə bilmək olar**

**Qələm-kağız qoyun, dedin,**
**Nəğmə dolu tabutuma.**
**Bəlkə bu dəli istəkdən**
**Kəmfürsət ölüm utana.**

Düşünürəm ki, Allahverdi Məmmədli erkən bizi tərk etsə də yaddaşlarda qaldı, ağır çəkili şair kimi unudulmadı.

Onu Allah vermişdi, arzuladığı şair taleyini də ona verdi.

Heyif ki, qələm, kağızdan süzüləcək çoxlu əsərlərini, deyimlərini özü ilə apardı

**İdris Şükürlü**

# "KAMİLLİK XƏZİNƏSİ"NİN AÇARI

**Əliabbas Vəliyevi çoxdan tanıyıram. Çox təmkinli, alicənab, yerini-sözünü bilən maraqlı həmsöhbətdir. O, qaynatam möhkəm kişiyə qohumdur, həmişə xeyir-şərimizdə iştirak edir, salam-kalamı kəsmir. Həmişə çalışıb ki, çətinliyə düşənlərə dayaq olsun.**



İllər uzunu bilməmişəm ki, Əliabbas həm də tariximizin bilicisidir. O, geniş təfəkkür və zəka sahibidir, milli-mənəvi dəyərlərimizi həmişə uca tutur və təbliğ edir, xalqın ürəyində yer almış şəxsiyyətləri unutmur. Təkcə unutmur, onların yaşadığı mühitdə baş vermiş hadisələri qələmə alır, unudulmasın deyə onları gələcəyin sahiblərinə çatdırır. Həm də nəyə qadir olduğunu göstərir.

Bu yazıda Əliabbasın sonuncu kitabında yer almış nəsr əsərləri barədə söz açmaq istəyirəm. Onun şeirləri də kitablarda çap olunub. Hakim Əliabbasın peşəkar yazıçı olmadığını nəzərə alsaq şeirləri sadə dildə yazıb, anlaşıqlıdır, oxucunu düşündürür, fəlsəfi-etik mahiyyət daşıyır, bəşəri mahiyyət kəsb edir: O, daha çox Xeyirin-Şər üzərində qələbəsinə üstünlük verir. Əsası da oxuculara çatdırmaq istəyir ki, biz gəldi-gedərik, dünya yaşamalıdır; insan bacardıqca yaxşılıq etməli, qurub-yaratmalı, xeyirxah əməlləri ilə yaddaşlarda qalmalıdır.

Qeyd edək ki, Əliabbas Vəliyev ziyalılar ailəsində pərvəriş tapdığı kimi, onun öz ailəsində də ona yaxın ali təhsilli var. Hamısı da həm vətənə, həm ailəyə, həm də özlərinə layiq mövqe tutublar. Nəvələri böyüyür. Əliabbas inanın ki, onun övladları nəslinin layiqli davamçıları olacaqlar. Əliabbas Vəliyev Cəngəmirxanlı İbadulla bəy Nurullabəyovun Əliabad kəndindəki qohumlarındandır. İbadulla bəy yaşadığı dövrdə hər kəsə müəssər olmayan Rusiyada ali təhsil almışdı, rus, ərəb və fars dillərini yaxşı öyrənmişdi. Müxtəlif vəzifələrə təyin edilmişdi, pistav olmuşdu. Onun qardaşlarından Ağacan bəy Cəngəmiranlı rus ordusunda general poruçik idi. Bu ayrıca bir maraqlı mövzudur.

Keçək əsas məsələyə. Əliabbas Vəliyevin bədii yaradıcılığa gec başlamasının səbəbləri var: o müxtəlif vəzifələrdə çalışarkən nəsrə və poeziyaya bilicisi olsa da nə vaxtsa hekayə və povest, şeir yazmaq barədə fikirləşmirdi. Təqaüd yaşına çatdıqdan sonra yaddaş süzgəcindən keçən hadisələri, bədii lövhələri qələmə almağa başladı. Beləliklə də "Yarpaqlar töküləndə", "Zülmətdə nur", "Kamillik xəzinəsi" şeirlər, "Yaxşı adam", "Ömür karvan yoludur", "Sinəyə sancılan xəncər" hekayə, povest və şeirlərdən ibarət kitabları sonrakı illərdə nəşr olunmuşdur. "Sinəyə sancılan xəncər" kitabın önündə tanınmış ədəbiyyat tənqidçisi, filologiya üzrə elmlər doktoru, professor Vaqif Yusifli "Bədii düşüncənin fəlsəfi qatları" adlı yazıda yazarın bədii yaradıcılığına bir nəzər yetirmiş, onu oxucuya daha yaxından tanıtmışdır... Professor yazır: "Bütün Azərbaycan nəsrinə ümumi, ötəri nəzər yetirsək, onun çox böyük hissəsinin məhz kənd mövzusunda yazıldığının şahidi oluruq. Bu marağın bir səbəbini nasirlərimizin əksəriyyətinin kənddə boya-başa çatmasında, bununla əlaqədar olaraq heç olmazsa uşaqlıq, gənclik müşahidələrinin silinməz izlərində və onların kənd koloritinə, abu-havasına, kənd psixologiyasına, ruhuna olmalarında görmək mümkünsə, başqa bir səbəbini bədii ədəbiyyatımızın kəndə olan ümumi marağında "bu mövzunun nəsrimizdəki zəngin ənənələrində axtarmaq lazımdır". Çox maraqlıdır ki, nasirlərimizin çoxu şəhərdə yaşasa da, əsərlərin mövzularını kənd həyatından götürürlər. Əliabbas isə kənddə yaşamış, kənddə baş verənləri qələmə almışdır. Daha doğrusu, onu kənddən yazmağa hansısa bir hiss, duyğu dikdə edir.

Bu baxımdan onun qələmə aldığı əsərlər adama xoş ovqat, səmimi aura bəxş edir, yadda qalır, düşündürür, xeyirxah əməllərə çağırır.

Əslində elə məhz ədəbiyyatın, söz sənətinin vəzifəsi də bəşəri hiss və duyğuları, humanizmi, ədaləri, xeyirxahlığı təbliğ etmək Xeyirin Şər üzərində qələbəsinə nail olmaqdır.

Bax budur ilahi istək, bəşərə dəstək!

Nasir Əliabbas Vəliyevin sonuncu kitabında "Tarixin qaranlıq səhifəsinə bir" işıq adlı yazı çap olunub. Yazıda Zərdüştlükdən söz açsa da, orada bir neçə maraqlı məqamlar var. Qeyd olunur ki, canlının yaranmasında əsas amillər kimi torpaq, hava, su və od qəbul edilir. Həyatın yaranmasında bunların dördü də vacibdir. Lakin "Canlı həyatın yaranması üçün lazım olan beşinci ünsürün olması və mövcudluğu barədə düşünən olmadı. Əsil həqiqətdə əsas götürənlər hər hansı bir istiliyi nəzərdə tuturdu. Onlar Günəş şüasının təsiri və tərkibi məlum olmayan Günəş şüası canlı aləmi yaradan beşinci amildir...".

Ali Allahın kölgəsi olan Günəşsiz həyat yoxdur, hər hansı bir canlı ondan nur alır. Bütün külli-kainatın, canlı və cansız nə varsa hamısının hərəkətverici qüvvəsi Allahdır.

Ulu Tanrı bizə hər şeyi təmənnasız bəxş edib. Qələmi, kağızı və sözləri də. Söz və qələm sahibləri özləri də bilmədən əbədiyyət yolçularıdır.

**İdris Şükürlü**

# İDMAN AKADEMİYASININ TƏLƏBƏSİ HƏM DƏ YAZIÇIDIR



**Jurnalist kimi təcrübəmdə çox maraqlı hadisələr baş verib: bəzən heyrətlənmişəm, təəccüblənmişəm.**

**Düşünmüşəm ki, elə məhz şərəfli peşə olan jurnalistika özünəməxsusluğu ilə seçilir.**

Yazıçı-jurnalistlər dostum Qəhrəman Əliyevlə növbəti görüşlərində o mənə bir kitab uzadaraq dedi:

- Tanış ol, bu kitabı Tural Asəf oğlu Əliyev yazıb. Binə qəsəbəsindəki 117 saylı məktəbdə oxuyur. Kitab haqqında "Lerik" qəzetində bir məqalə yazsanız yaxşı olar.

- Kitabı mənə verin, oxuyub sizə qaytararam.

Doğrusu, elə ilk andaca kitabın adı diqqətimi çəkdi: "Mən general olacağam". Vətən müharibəsinin qəhrəmanı Amid Rəbbil oğlu Heydərov belə arzu etmişdi   Oxucular bilirlər ki, Amid Lerikin yetirməsidir. Burada orta məktəbi bitirmiş, vətənpərvərlik ruhunda böyümüşdür. Hərb elminə marağı onu hərbçi olmağa sövq edirdi. Kitabda yazıldığı kimi Amid deyirdi: "Mən general olacağam, Həzi Aslanovun yolunu davam etdirəcəyəm, ermənilərin başını əzəcəyəm".

2006-cı ildə Amid Heydərov Ali Hərbi Akademiyaya daxil olur. Oranı uğurla bitirdikdən sonra Ağcabədi rayonundakı N saylı hərbi hissədə tağım komandiri kimi xidmətə başlayır

"Lerik" qəzetində Tural Əliyevin kitabı barədə qeydlər dərc olundu. Xəbər tutdum ki, Tural Əliyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının birinci kursunda oxuyur. Gənc yazıçı ilə məni atası Arif Əliyev tanış etdi. Rəssam oğlu Kənan onunla idi. Bu görüş mənim üçün maraqlı oldu. Hər iki qardaş həm tələbə, həm də yaradıcı insanlar idi.

- Necə oldu ki, Amid Heydərovun şücaəti, hünəri barədə kitab yazmaq fikrinə gəldin? -deyə Turaldan soruşdum.

- Orta məktəbdə oxuyarkən bədii kitablara, kino-filmlərə məndə maraq hissi baş qaldırmışdı. Xüsusilə də Qarabağ müharibəsini əhatə edən kitablar, qəzet-jurnal yazıları məndə maraq oyadırdı. Hüseyn Abbaszadənin "General" romanını bir neçə günə oxumuşdum   və həmin kitabı təkrarən oxudum. Azərbaycanın fəxri, tank qoşunları qvardiya general mayoru iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi




Aslanovun Böyük Vətən müharibəsində göstərdiyi cəsurluq və şücaət tam çılpaqlığı ilə gözlərimin önündə canlandı. Düşündüm ki, kaş mən də belə bir kitab yaza biləydim.

Nə biləydim ki, illər ötəndən sonra Həzi kimi qəhrəman fəxri qüruru, Vətən müharibəsinin qəhrəmanı, adı Zəfər tariximizə yazılmış Amid Heydərov barədə araşdırma aparacaq, özündə güc taparaq kitab yazacaq. Bununla da o diqqətimizi tarixi bir məqama cəlb edəcək.

Xüsusi olaraq diqqətə çatdırmaq gərəkdir ki, Tural Əlizadə qəhrəman Amid Heydərovun döyüş yoluna ətraflı ekskurs etmişdir. Onun Lələtəpə kimi strateji yüksəklikdə hünərindən söz açmışdır. Amidin 305 nömrəli tankı ilə yüksəkliyi necə almasını diqqətə çatdırmışdır. Lələtəpə yüksəkliyi uğrunda şiddətli döyüşə atılan "... dərin məntiqə malik komandir Amid Heydərov bir andaca qərar verir: "Atəş! deyə bütün gücü ilə hayqırır. Od saçan mərmi bir anın içində qarşıdakı istehkamı göyə sovurur. Qarşı tərəfdən atəş səsi kəsilir. Amid yenidən "Tam sürətlə arxamca!" əmri verir. Bir neçə dəqiqədən sonra Amidin tankı artıq Lələtəpədən yüksəkliyə qalxır. Düşmən əsgərləri Azərbaycan Ordusunun tankları görəndə gözlərinə inana bilmirdilər   "

Aprel döyüşlərindən sonra dostları onu fəxrlə qəhrəman adlandırırlar, o isə, "hələ döyüşçülərimiz qabaqdadır. Bir gün Sizə Şuşadan zəng vuracam



və deyəcəyəm ki, torpaqlarımız işğaldan azad olunub".

Tural Əliyev kitabda Amid Heydərovun Vətən müharibəsində Qarabağ uğrunda qanlı döyüşlərdə keçdiyi hünər yolundan ustalıqla yazıb. Qeyd edib ki, həmişə tankçılara deyərdi: Mən "İrəli" yox, "Ardımca!" komandası verməliyəm ki, siz də cəsarətlə gələsiniz".

Düşmənin möhkəmləndirdiyi müdafiə xətti Amid Heydərov kimi qəhrəman tankçıların sayəsində yarılır. Cəbrayılın Nuzigar kəndi ətrafında şiddətli döyüşlər zamanı düşmənə sarsıdıcı mərmilər yağdıran, tanklarını məhv edən Amidin döyüş sursatı qurtarır, düşmən onun tankını vurur, bütün heyət, mayor Amid Heydərov vətən yolunda şəhid olur

Əlbəttə, bir yazıda kitab haqqında təslifatı ilə söhbət açmaq çətindir. Əsas məsələ budur ki, gənc və istedadlı yazıçı Tural Əliyev məqsədinə nail olmuş, vətənpərvər yazıçı, vətəndaş mövqeyini nümayiş etdirmişdir.

İnanırıq ki, Tural Əliyevin uğurları irəlidədir.

Uğur olsun, Tural!

**İdris Mütəllimoğlu**

